# Ümumtürk tarixində Cəlairiyyə sultanlığı



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

### II Yazı

***Cəlairiyyə hökuməti. Cəlairilər böyük türk boylarından biridir. On qola bölünürdü. Hazırda bu Türkman boyundan yalnız biri-Cəbulğan adlanan tayfa qalmaqdadır. Cəlairi boyu Çingiz xan ordusuna daxil olan boylardan biri idi. Azərbaycana və İraqa monqol qoşunu ilə birlikdə daxil olmuşdur. 1340-cı ildə Şeyx Tacəddin Həsən Bozorg Bağdadı tutaraq İraqda Elxanlı Dövləti hakimiyyətinə son qoyur, yaratdığı yeni dövlət - Cəlairi Sultanlığı (Cəlairi hökuməti) adlanır.***

***Şeyx Tacəddin Həsən Bozorg Elxanlı Dövləti zamanı gəlib Azərbaycan və İraqda yerləşən Cəlairi boyunun övladıdır. Onun bir oğlu-Ağ Buğa Azərbaycan Elxanlı İmperatorluğunun elxanı Keyxatunun (1291-1295) zamanında İraqda Əmirul-ümərə (Əmirlər əmiri), ikinci oğlu Əmir Hüseyn elxan Əbu Səid Bahadır xan zamanında ulus qəbiləsinin əmiri olub,həmin dövrdə Şeyx Həsən Bozorg özü Anadolunun hökmdarı idi.O,Bağdadın elxanlı valisi Əli Padşaha qələbə çalmışdı.***

Şeyx Həsən İraqda hakimiyyəti ələ keçirən zaman Mosul ətrafında yaşayan türkman qəbilələri qorxu törətsə də o, İraq və Azərbaycandakı Cəlair boyuna arxalanırdı. İbn Xəldun bu haqda yazır: “Kiçik Həsən (Çoban) Təbrizdə müstəqil xan olduqda, Böyük Həsən-Bağdadın Sultanı ona heç nə edə bilmədi.Onu Azərbaycandan gələn türkmanlar məğlub etmişdilər. Bu zaman Şeyx Həsən Bozorg Misir hökmdarı Məlik ən-Nasıra xəbər göndərdi ki,Bağdadı tutub...”

Böyük Həsənin (Şeyx Tacəddin Həsən Bozorg) Misir hökmdarına məktub yazmasının səbəbi Çobanın (Kiçik Həsən) övladlarının və başqalarının ölkəylə qonşu yerlərdə hakim olmaları idi.Bütün itkilərə baxmayaraq Böyük Həsən Bağdadı alır və demək olar ki,heç bir rəqibsiz hakimiyyətə gəlir.

İraqda Cəlairi hökuməti Əmir Teymurun İraqı 1393-cü ildə istilasınadək davam edir.Alim-tarixçi Abbas Ənə-Əzzavi elm və maarifə həsr etdiyi polemik qeydlərində yazır: “Cəlairi dövründə inşa edilən mədrəsələr,eyni zamanda tikilən məscid binaları Cəlairilərin elmə olan marağını sübut edir. Əksər hallarda məscid mədrəsədən,mədrəsə də məsciddən ayrı olmur, müdərrislər ya dövlət qulluqçuları olur,ya da müəyyən himayə görürlər...Belə müəssisələrdən ən məşhurları: Xavəcə Məsud mədrəsəsi, Aquli mədrəsəsi, Siracəddin camesi, Nəmani camisi, Seyyid Sultan Əli camesi,Vəzir İsmayıl mədrəsəsi və sairə idi.Tədris işləri ilə nüfuzlu və geniş şöhrət tapmış alimlər məşğul olurdular “.

## Sultan Qiyasəddin Əhməd Cəlair

Əhməd Cəlair 1382-ci ildə Təbrizə basqın təşkil edərək qardaşı Sultan Hüseyn Cəlaləddini devirdi və Cəlair taxtını ələ keçirdi. Sultan Əhməd Təbrizə girdiyi zaman digər bir qardaşı Bəyazid qorxusundan Sultaniyyə şəhərinə fərar elədi. Burada Bəyazid Sarı Adil tərəfindən Azərbaycan padşahı elan edilərək, müzəffərilərin də ordusu ilə ordusunu birləşdirdi. Təbriz üzərinə təşviq və sövq edildi.Bu birləşmiş qüvvələrə müqavimət göstərə bilməyən Sultan Əhməd Bağdada çəkilməyə məcbur oldu isə də, müzəfferilər və Bayazidin ordusunda ixtilaf baş verməsi səbəbi ilə Sarı Adil və Bəyazid fərar etdiklərindən,Sultan Əhməd də təkrar Təbrizə girdi.Lakin Sultan Əhməd mövqeyindən sui-istifadə və əhaliyə etdiyi zülmlərdən əhali bezərək padşahın qardaşı Şeyx Əlini taxta dəvət etdilər. Şeyx Əli də ordusu ilə Təbriz üzərinə yürüdü. Sultan Əhməd ordusu ilə qarşısına çıxdı isə də Həftrudda qoşun sərkərdəsi olan Ömərin xəyanət etməsi ilə Naxçıvana fərara məcbur oldu.Bir müddət sonra Sultan Əhməd Qaraqoyunlu Qara Məhəmmədin (1380-1389) ordusunun yardımı ilə Ərdəbildə Şeyx Əli ilə savaşdı. Bu müharibədə türkmənlər çəkildilər, lakin Sultan Əhməd yenə qalib gələrək,düşməni məğlub və özünü də qətl edərək Təbrizə girdi.Beləcə, Sultan Əhməd düşmənlərindən tamam qurtuldu.Yalnız Sultaniyyədə əleyhinə çalışan qardaşı Bəyazid qaldı.Bundan sonra Sultan Əhməd Qara Məhəmmədin qızı ilə evlənərək Qaraqoyunlularla əlaqələrini möhkəmləndirdi. Sultan Əhməd bu qohumluqdan istifadə edərək Qara Məhəmmədə müharibələrdə yardım göstərir.Sultaniyyə şəhərinin ələ keçirilməsini müzəfferilərə tapşıran Sultan Əhməd Cəlair həm müzəfferiləri məmnun edir və həm də Bəyazid qailəsindən xilas oldu. Şah Şüca Sultaniyyədə Bəyazidi vali təyin etmiş idi.Bu da əhaliyə çox zülüm etdiyindən əhali Sultan Əhmədi dəvət edərək şəhəri təkrar təslim etdi.Sultan Əhməd Bəyazidi tutdu və gözlərinə mil çəkdirdi. Bu sırada Sarı Adil Farsda vali idi.Sultan Əhmədin Təbrizə dönməsindən istifadə edərək, Sultaniyyə şəhərinə girdi və Bağdad valisi ilə uyuşmaq üzrə Bərsəq adında birisini Bağdada elçi göndərdi. Lakin Bərsəq vali Əbdülməlik ilə birləşərək Bəyazidi qətl və şəhəri yağma etdiklərindən,Bağdadda hərc-mərclik başladı. Nəhayət, Sultan Əhməd ordusu ilə gələrək şəhəri zəbt və Bərsəqi qətl elədi.Bir az sonra Sarı Adili qətl etməklə düşmənlərindən tamamilə qurtuldu isə də bu sıralarda Teymurləng zühur etdi. Qaraqoyunlu Qara Məhəmməd öldürüldükdə yerinə oğlu Qara Yusif (1389-1420) çıxır və əmir olur.

Əhməd Cəlair Təbrizin əvvəlcə Toxtamış (1380-1395), sonradan isə Əmir Teymur (1370-1405) tərəfindən ələ keçirilməsi və ara müharibələri səbəbindən paytaxtı Bağdada köçürdü, lakin 1393-cü ildə Əmir Teymurun Bağdada yaxınlaşması ilə Misirə Məmlüklərə sığındı. Əmir Teymur Səmərqəndə döndükdən sonra yenidən Bağdada qayıtdı və burada bir neçə il hakimiyyətdə qaldı, lakin Əmir Teymurun üzərinə qoşun göndərməsi ilə yenidən Məmlüklərə sığındı. Məmlüklər Teymurdan çəkindikləri üçün onu və Qara Yusifi qəbul etmədilər.Bu səbəbdən müttəfiqlər Osmanlı hökmdarı Yıldırım Bəyazidə (1389-1402) sığındılar.

1402-ci ildə Osmanlı Dövləti (1299-1922) və Teymurilər arasında baş vermiş Ankara savaşının səbəblərindən biri də Yıldırım Bəyazidin müttəfiqləri Əmir Teymura təhvil verməməsi idi. Döyüşdə Osmanlıların məğlubiyyətindən sonra müttəfiqlər yenidən Məmlüklərə sığınsalar da Məmlük sultanı Fərəcin əmri ilə həbs edildilər və Əmir Teymurun 1405-ci ildə vəfatından sonra sərbəst buraxıldılar.Həbsxanada məmləkətlərinə döndükləri zaman biri digərinə hücum etməyəcəyinə dair əhd və peyman eyləmişdilər.

***Əhməd Cəlair geri döndükdən sonra Bağdadı və Xuzistanda Teymurilərin əlindəki qalaların bir çoxunu ələ keçirdi.1409-cu ilin 18 dekabrında Təbrizə, Qara Yusifə elçi göndərərək Həmədanın ona verilməsini tələb etdi. Qara Yusif isə bu tələbi rədd etdi və elçini geri qaytardı.Bu tələbin rəddindən sonra tərəflər arasında münasibətlər tam pozuldu və müharibəyə səbəb oldu.İndi Əhməd xan əhdi pozaraq Qara Yusif üzərinə hərəkət edərək, Təbrizə hücum elədi. 1410-cu ilin 30 avqustunda Sultan Əhməd Cəlair və Qara Yusif arasında Təbriz yaxınlığındakı Əsəd kəndi yaxınlığında baş vermiş savaşda Əhməd Cəlair məğlub oldu və öldürüldü.Sultan Əhməd Cəlair ana dilimizdə türkcə yazan şairlərdən biriydi.Onun adı anadili ədəbiyyatımızda Nəsimi, Həsənoğlu, Qazi Bürhanəddin ilə birgə çəkilmişdir.***

## Dövləti təşkil edən boylar

Cəlairiyyə Sultanlığını Cəlair eli ilə yanaşı Azərbaycan və İraq ərazisində yerləşən bəzi Türk boylarına istinad edərək dövlət yaratmışdılar. 1257-ci ildə İraqı fəth etməyə gələn Hülakü xanın qoşunu monqollardan başqa müxtəlif türk boylarının ordularından təşkil edilmişdi. Karton Kon bu haqda yazır: “Monqol qoşunu öz quruluşu etibarı ilə qədim Kurş ordusuna bənzəyirdi. O, hakim təbəqədən təşkil edilmiş alicənablardan ibarət xüsusi qvardiyadan və türk boylarından yığılan müxtəlif qoşun hissələrindən ibarət idi.Monqollardan başqa ordunun əksər hissəsi türklərdən yaranmışdı. Hətta türklər sayca monqolların özündən qat-qat çox idi”. Tarixçi-alim Abbas Əl-Əzzavi əsaslandırmışdır ki, İraqdakı türk boylarının bir hissəsi ya monqol qoşunundan əvvəl,ya da qoşunla birgə İraqa gəlib,burada məskən salaraq yaşamışdır.

Cəlairilər Sultanlığının hakim qəbiləsi Azərbaycanda yaşayan Cəlair boyu ilə yanaşı bu dövlət Qara Ulus,Tataran, Soruliyə və Baclan boyundan təşkil edilmişdi.

### Qara Ulus

Qara Ulus qəbiləsi aşağıdakı qollara bölünür:

1.Qaytul (yaxud Qaytuli)
2.Gəncini (yaxud Gəcineyn)
3.Nəftəci
4.Cərmund
5.Kausuvari
6 .Kəkəvənd

### Tataran

Tataran tatar qəbiləsidir.Elxanlı dövləti zamanında İraqda yerləşdirilmişdi.

### Baclan

Baclan boyu onlar türkdürlər, “baclan” sözünün mənası isə “bac alan” deməkdir. 12 qola bölünürlər.Onları Elxanlı Dövləti zamanında İraqda yerləşdirilmişdi.

### Xristian türklər

Monqol qoşunu ilə çoxlu xaçpərəst türk axıb gəlmişdi. Hülakünün ən böyük sərkərdələrindən olan türk Kit Buğa da xaçpərəst idi və nayman qəbiləsindən çıxmışdı. Hülakünün zövcəsi Doqquz Xatun da xaçpərəst olub.Abbasi xilafətinə Hülakünun tutduğu divanda onun da öz rolu olduğu güman edilir.

***“Rəşidəddin yazır: ”Hülakü xanın (1256-1265) çoxlu qadını və aşnası olub.Ən sevimli qadını Doqquz Xatun qədim nəsildən olub, Kereit boyundan olduğu üçün həmişə xaçpərəstlərin mövqeyinin möhkəmləndirilməsinə çalışırdı.Onun zamanında Kereit Türk boyunun güclü mövqeyi vardı,çünki Hülakü xan zövcəsinin arzularına əsasən onlara xüsusi qayğı göstərirdi. Hətta iş o dərəcəyə çatmışdır ki,onlara bütün vilayətlərdə kilsələr tikdirirdilər.Çünki qardaşı Münke Xaqan Hülakü xana vəsiyyət etmişdi ki,bütün məsələlərdə və işlərdə Doqquz Xatunla məsləhətləşsin. Hazırda İraqda yaşayan xaçpərəst türkmanlar,elxanlı qoşunu ilə İraqa gəlmiş xaçpərəst türkmanların nəslidir.İstər Elxanlı Dövləti dövründə və onu əvəz edən Cəlairiyyə dövləti dövründə xüsusi qayğı və diqqətlə əhatə olunmuşdular.***



## Cəlairiyyə dövlətinin süqutu

Sultan Qiyasəddin Əhməd xandan sonra Cəlair taxtına Sultan Şahvələd keçdi. Onun qısa hakimiyyətindən sonra Sultan Əhməd xanın qardaşı oğlu Sultan Mahmud Bağdadda Cəlair taxtına çıxdı.Qaraqoyunlular 1411-ci ildə Cəlair dövlətinin ərazisini zəbt edərək Cəlairi hökumətinə son qoydular. Lakin Mahmud xanın zövcəsi Təndu Sultan Xuzistanı zəbt edərək Xuzistanda Cəlairi hökuməti təşkil etdi. Sultan Mahmuddan sonra Əbu əl-Fəth Üveys Bahadır, Şah Məhəmməd, Şah II Mahmud və Sultan Hüseyn adlarında Cəlairilərə məxsus şəxslər 1432-ci ilə qədər işləri idarə etdilər.Bu tarixdə Qaraqoyunlular Xuzistanı zəbt edərək,Sultan III Hüseyni qətl etməklə Cəlairi Sultanlığına və xanədanına son verdilər. Sultan Üveys ilə Sultan Hüseyn Təbrizdə Rəşidiyyə qalasında dəfn olunmuşdur. Cəlairiyyə Sultanlığı Azərbaycan və İraq ərazisində mövcud olmuşdu. Dövlətçilik tariximizə parlaq səhifələr yazmış bir boy dövləti olmuşdur.

***Cəlairilər Sultanlığı 1340-1432 –ci illərdə mövcud olmuşdu. Cəlairiyyə hökumətini idarə etmiş 11 sultan bunlardı.***

*1. Şeyx Tacəddin Həsən Bozorg və ya Böyük Həsən 1340-1356.*
*2. I Sultan Hüseyn 1356-1358.*
*3. Sultan Üveys Cəlair 1358-1374.*
*4. Sultan II Hüseyn Cəlaləddin 1374-1382.*
*5. Sultan Bəyazid 1382-1383.*
*5. Sultan Qiyasəddin Əhməd 1383-1410.*
*6. Sultan Şahvələd 1410-1411.*
*7. Sultan Mahmud Cəlair 1411-1415 , 1422*
*8. II Sultan Üveys 1415-1421.*
*9. Sultan Məhəmməd Cəlair 1421-1422.*
*10. II Mahmud 1422-1424.*
*11. III Hüseyn 1424-1432.*

***Cəlairilər Sultanlığının Paytaxtları***

*Bağdad 1340-1358.*
*Təbriz 1358-1388.*
*Bağdad 1388-1411.*
*Bəsrə 1411-1432.*